**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi**

**Milli Azərbaycan Tarixi Muzeyi**



AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru,

**professor Yevgeni Aleksandroviç Paxomovun**

vəfatının 60 illiyinə həsr edilmiş

# “Azərbaycan numizmatikası və Yevgeni Paxomov”

elmi seminarının materialları

(2 may 2025-ci il)

Bakı – 2025

**Tərtib edən:** tarix üzrə fəlsəfə doktoru Məmmədova Aygün Musa qızı

Topluda AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Yevgeni Aleksandroviç Paxomovun vəfatının 60 illiyinə həsr edilmiş seminarda səsləndirilən məruzələrin xülasələri Azərbaycan və ingilis dillərində təqdim edilmişdir.

## Ön söz

2025-ci il Cənubi Qafqazın tarixi, arxeologiyası, numizmatikası, mənbəəşünaslığı və genealogiyasına həsr olunmuş çoxsaylı əsərlərin müəllifi, Azərbaycanın numizmatika elminin banisi, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Yevgeni Aleksandroviç Paxomovun (1880 - 1965) vəfatının 60 illiyi ilə əlamətdardır.

1919-cu ildən Bakı şəhərinə köçən və ömrünün sonunadək Azərbaycan Tarixi Muzeyi (indiki Milli Azərbaycan Tarixi Muzeyi) və Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) elmi-pedaqoji fəaliyyətlə məşğul olan Y.A.Paxomov dərin tarixi biliyə, dil bacarığına sahib idi.

1922-ci ildə o, muzeyin Tarix və Etnoqrafiya şöbəsinin müdiri, sonralar isə Numizmatika Fondunun müdiri təyin edilmişdi.

Fəal muzey işçisi olan Y.A.Paxomov, XX əsrin 20-ci illərindən başlayaraq Azərbaycan Tarixi Muzeyində ekspozisiyanın təşkilində, təbliğində iştirak edərək, Numizmatika Fondunu yaradılması və sikkə vahidlərinin artırılmasında yorulmaz fəaliyyəti ilə fərqlənmişdi. Muzeydə çalışdığı illərdə o, Moskva və Leninqrad (indiki Sankt Peterburq) muzeylərinə ezam edilərək "Azərbaycanşünaslıq materialları" mövzusunda məlumatlar toplamışdı.

O, tədris fəaliyyəti ilə yanaşı həm də çoxsaylı arxeoloji ekspedisiyalarda (Gəncə, Mingəçevir, Mil düzü, Beyləqan) iştirak etmiş və 100-ə yaxın elmi əsərlərində Qafqaz numizmatikası, regionun pəhləvi və ərəb qrafikalı epiqrafikası, orta əsrlərə aid memarlıq və arxeoloji abidələrini ilk dəfə olaraq tədqiqata cəlb etmişdi. Bir sıra muzeylərdə və şəxsi kolleksiyalarda qorunan materiallar, paleoqrafiya, mənbəşünaslıq, iqtisadiyyat tarixi, tarixi coğrafiya və topoqrafik məlumatlar məhz Y.Paxomovun araşdırmaları sayəsində işıq üzü görmüşdü.

Zəngin elmi nəticələrlə fərqlənən belə əsərlər sonrakı illərin araşdırmaları üçün münasib zəmin yaratmışdı.

Müasir dövrümüzdə də tədqiqatçıların diqqətində olan Y.A.Paxomovun əsərlərinin əlyazmaları, alimin əks edildiyi fotolar, şəxsi sənədləri və başqa materiallar Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında və Sankt-Peterburq şəhərindəki Dövlət Ermitajında saxlanılır.

Alimdən miras qalmış Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondu hazırda çoxsaylı sikkə vahidlərinin qorunduğu, tədqiq və təbliğ edildiyi mərkəzlərdəndir.

Təqdim edilən topluda 2 may 2025-ci ildə Milli Azərbaycan Tarixi Muzeyində tarix elmləri doktoru, professor Yevgeni Aleksandroviç Paxomovun vəfatının 60 illiyinə həsr edilmiş seminarda səsləndirilən məruzələrin xülasələri Azərbaycan və ingilis dillərində təqdim edilib.

**Tarix üzrə fəlsəfə doktoru Aygün Məmmədova**

## Preface

2025 marks the 60th anniversary of the death of Professor Yevgeni Aleksandrovich Pakhomov (1880–1965). He was the author of numerous works on the history, archaeology, numismatics, source studies and genealogy of the South Caucasus. He was also the founder of numismatics in Azerbaijan and a corresponding member of the Azerbaijan Academy of Sciences and Doctor of Historical Sciences.

After moving to Baku in 1919, he engaged in scientific and pedagogical activities at the Azerbaijan History Museum (now the National Museum of History of Azerbaijan) and the Azerbaijan State University (now Baku State University) until the end of his life. Y. A. Pakhomov possessed deep historical knowledge and language skills.

In 1922, he was appointed Head of the History and Ethnography Department at the museum and later Head of the Numismatic Fund.

An active museum worker, Pakhomov participated in the organisation and promotion of exhibitions at the Azerbaijan History Museum from the 1920s onwards and distinguished himself through his tireless work in creating the Numismatic Fund and increasing coinage. During his time at the museum, he was seconded to museums in Moscow and Leningrad (now Saint Petersburg) to collect information on the subject of 'Azerbaijani Studies Materials'.

Alongside his teaching activities, he participated in numerous archaeological expeditions in Ganja, Mingachevir, the Mil plain and Beylagan. In his nearly 100 scientific works, he was the first to study Caucasian numismatics and the Pahlavi and Arabic script epigraphy of the region, as well as medieval architectural and archaeological monuments. Thanks to Y. Pakhomov’s research, materials, paleography, source studies, economic history, historical geography and topographical information preserved in a number of museums and private collections were published.

These works, characterised by their rich scientific findings, laid the groundwork for subsequent research.

The manuscripts of Y. A. Pakhomov's works, photographs of the scientist, personal documents, and other materials are still of interest to researchers in the modern era. These items are stored in the collections of the National Museum of History of Azerbaijan and the State Hermitage in St. Petersburg.

The Numismatic Fund of the National Museum of History of Azerbaijan, which was inherited from the scientist, is currently one of the centres where a large number of coins are preserved, studied and promoted.

This collection contains summaries of reports presented at a seminar held at the National Museum of History of Azerbaijan on 2 May 2025 to mark the 60th anniversary of the death of Yevgeni Aleksandrovich Pakhomov, Doctor of Historical Sciences and Professor. The seminar was held in Azerbaijani and English.

**Philosophy Doctor in history Aygun Mammadova**

**Əliyeva Nərgiz Ağasəlim qızı**
Milli Azərbaycan Tarixi Muzeyinin
"Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi"
şöbəsinin müdiri,tarix elmləri doktoru
Emai.:nargiz.aliyeva.52@mail.ru

## Yevgeni Paxomovun "Azərbaycan tarixinin qısa kursu " adlı əsəri haqqında

Azərbaycan Xalq Cümhuriyyətinın mövcud olduğu müddət ərzində Azərbaycanın milli tarix, arxeologiya,numizmatika elminə xüsusi diqqət yetirilmişdir. Təəssüf ki bu dövr uzun çəkmədi. 1920-ci il Aprelin 27-də XI Ordunun Bakıya birbaşa müdaxiləsi nəticəsində Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk onillik bir keçid dövrü kimi spesifik xüsusiyyətləri özünü ölkənin maarif, elm və mədəniyyət sahəsində də göstərirdi. Sovet hakimiyyətinin iyirminci illərini onun digər dövrlərindən fərqləndirən cəhətləri onda idi ki,Cümhuriyyət dövründə fəaliyyət göstərmiş alimlərin elmi yaradıcılığı onların sonrakı ciddi elmi yaradıcılığı üçün təməl daşı olmuşdur.1923-cü ildə Y.Paxomovun "Azərbaycan tarixinin qısa kursu " adlı əsəri[1] nəşr olundu. Şirvanşahların XI-XIV əsrlər tarixinə dair ekskursun da əlavə olunduğu bu əsərin yazılmasından məqsəd, müəllifin özünün ön sözündə etiraf etdiyi kimi 1922/23-cü dərs ilində Bakı Xalq Maarif İnstitutunda oxuyanlar üçün nəzərdə tutulmuş mühazirirələrin ixtisar olunmuş variantıdır. 48 səhifəlik bu yazıda isnadlar verilməmişdir.Paxomov faktiki materialın çox hissəsini ixtisar edərək yalnız tezislərin saxlamasının səbəbi kimi çap işinin ucuz başa gəlməsi ilə əlaqələndirir. Y.Paxomov əsərinin "Qafqaz Azərbaycanının tarixi üzrə mənbələr" bölməsində ərəb dövrü haqqında məlumat verərək göstərir ki, bu dövr üçün əsas mənbə kimi müsəlman tarixçi coğraiyaçılarının əsərləri götürülməlidir. Paxomova görə Dərbənd keçidini də əhatə edən Şərqi Zaqafqaziyanın (Cənubi Qafqaz-N.Ə.) şimalında güclü və döyüşkən Xəzər çarlığının yerləşməsi ərəblərin gözündə elə bir mühüm əhəmiyyət kəsb etməsi nəticəsində, o dövrün elə bir tarixçisini və coğrafiyaçısını tapmazsan ki, Şirvan və Dərbənd və ya onlarla bağlı hadisələri yada salmasın. Paxomov təəssüf hissi ilə yazır ki, Şərq mənbələrinin bir çoxu nəşr onunmuş və dəfələrlə Qərbi Avropada yayımlanmasına baxmayaraq, rus ədəbiyyatı bu cəhətdən kasaddır. Müəllif istisna kimi N.Karaulovun "Ərəb müəlliflərinin Qafqaz, Ərminiyə və Azərbaycan haqqında mılumatları" kitabı üçün etdiyi tərcümələri göstərir. O, bir çox erməni müəlliflərinin bu dövr üçün yazdıqları əsərləri də əlavə edir. Epiqrafik abidələrin azlığından isə şikayətlənən müəllif bu boşluğun numizmatik maretiallarla doldurməğın mümkünlüyündən danışır. Səlcuq dövrü mənbələri üzərinə qayıdan tədqiqatçı artıq Səlcuqlar dövründən bəhs edərkən, bu dövrdə gürcü salnamələrinin və mənbələrinin sayının artdığını qeyd edir. Müəllifə görə, Səlcuqlar dövründə siyasi cəhətdən Şirvan gürcülərə daha yaxın idi. Mədəni-tarixi əlaqələr baxımdan Səlcuqlar və Atabəyləri bölünməz bir tam kimi qeyd edən Paxomov yazır ki, bu dövrdə bir çox maddi abidələr-qala, məscid, qəsrlər və bir sıra mühüm tarixi kitabələr və sikkələr diyarın hakim sülalələri və ümumilikdə diyar haqqında aydın məlumat verir. 1920-ci illərdən keçən 100 il ərzində Azərbaycan tarixi əldə edilmiş yeni mənbələr, aparılmış genişmiqyaslı qazıntlar, aşkar edilmiş epiqrafik abidələr və numazmatik materiallar, həyata keçirilmiş tədqiqatlar Yevgeni Paxomovun Azərbaycanın qədim və orta əsrlər haqqında gətirdiyi bəzi müddəalarının köhnəldiyini göstərir. Eləcə də müəllifin "Əlavələr" bölməsində Şirvanşah-Kəsranilərin numizmatik, etnoqrafik və digər mənbələr əsasında yazdığı tarixi oçerk də 1920-ci illərdə bir sıra mənbələrin əldə olunmaması nəticəsində köhnəlmiş variant hesab edilə bilər. Müəllif özü də etiraf edir ki, mənbələrə əlin çatmaması, bəzən isə hər hansı bir mövzunu işləyərkən ümumiyyətlə mənbənin olmaması istər-istəməz onun diqqətini daha çox diyarın siyasi tarixinə yönəltməyə məcbur etmişdi, məsələlərin iqtisadi cəhətdən işlənməsini isə o, gələcək dövrlərə saxlamışdı.

[1] Пахомов Е.А. Краткий курс истории Ажербайджана.С приложением по истории ширваншахов XI-XIV вв. Баку,1-ое Типогр. Труд.Т-во, 1923.

**Aliyeva Nargiz Agaselim gizi,**
Head of the “Scientific Research and Presentation of the History of Azerbaijan”
department of the National Museum of History of Azerbaijan,
Doctor of History, Associate Professor
Email: nargiz.aliyeva.52@mail.ru

## About Yevgeni Pakhomov’s work “A Short Course of the History of Azerbaijan”

During the existence of the Azerbaijan Democratic Republic, special attention was paid to the study of Azerbaijan's national history, archaeology and numismatics. Unfortunately, this period did not last long. The first decade of the Soviet regime in Azerbaijan was a transitional period characterised by the direct intervention of the XI Army in Baku on 27 April 1920. This intervention also manifested itself in the country's education, science, and culture. What distinguished the 1920s from other periods of Soviet rule was that the scientific work of scientists who had worked during the Republic period formed the basis for their subsequent serious scientific endeavours. In 1923, Yevgeni Pakhomov's work A Short Course of the History of Azerbaijan was published. As the author himself admitted in his preface, the purpose of writing this work, which includes an excursion into the history of the Shirvanshahs of the 11^(th)-14^(th) centuries, was to provide students at the Baku Institute of Public Education with an abridged version of the lectures intended for the 1922/23 academic year. This 48-page text contains no references. Pakhomov abridges most of the factual material, retaining only the theses, and cites the low cost of printing as the reason. In the section 'Sources on the History of Caucasian Azerbaijan' of his work, Pakhomov provides information about the Arab period, demonstrating that the works of Muslim historical geographers should be considered the primary source for this period. According to Pakhomov, the location of the powerful and warlike Khazar kingdom in the north of Eastern Transcaucasia (South Caucasus-N.A.), which included the Derbent Pass, was of such great importance to the Arabs that no historian or geographer of that period would fail to mention Shirvan, Derbent, or related events.

With regret, Pakhomov writes that, although many Eastern sources were published by him and have been published repeatedly in Western Europe, Russian literature is deficient in this respect. He cites the translations made by N. Karaulov for the book Information of Arab Authors about the Caucasus, Armenia and Azerbaijan as an exception. He also mentions works by numerous Armenian authors from this period. Complaining about the scarcity of epigraphic monuments, the author suggests filling this gap with numismatic materials. Returning to the sources of the Seljuk period, the researcher notes that the number of Georgian chronicles and sources increased during this period. According to Pakhomov, Shirvan was politically closer to the Georgians during the Seljuk period. In terms of cultural and historical relations, Pakhomov writes that the Seljuks and Atabeys should be considered as one entity. He adds that many material monuments, such as fortresses, mosques, castles, and important historical inscriptions and coins, provide clear information about the region's ruling dynasties. Over the past 100 years, new sources of Azerbaijani history have been obtained, large-scale excavations have been conducted, epigraphic monuments and numismatic materials have been discovered and research has been carried out. This indicates that some of Yevgeni Pakhomov's statements about ancient and medieval Azerbaijan have become outdated. Similarly, the historical essay on the Shirvanshahs-Kasranis in the 'Appendices' section, based on numismatic, ethnographic and other sources, can also be considered outdated due to the unavailability of sources in the 1920s. The author himself admits that, when working on any topic, the lack of access to sources — or sometimes even the complete absence of sources — inevitably forced him to focus more on the region's political history. He saved issues of economic development for future periods.

**Pirquliyeva Qənirə Əli qızı**
BDU-nun "Arxeologiya və Etnoqrafiya"
kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
Email: p_qanira@hotmail.com

**Azərbaycan sikkəşünaslıq elminin tarixində Y.A.Paxomovun yeri və rolu**

Ölkəmizin elm tarixində özünəməxsus yeri, əhəmiyyəti olan sikkəşünüslıq, yaxud numizmatika elminin yaranması obyektiv səbəblərdən Sovetlər imperiyası ilə bağlıdır. XX əsrin əvvəllərində Rusiya İmperiyasının "sələfi" olan bolşevik Rusiyasının imperialist siyasətinin kökündə duran problemlərdən biri və bəlkə də birincisi zor gücünə işğal etdiyi ərazilərin yerli xalqlarına aid olan maddi mədəniyyət qalıqlarını üzə çıxarmaq, toplamaq, dəyərləndirmək və ən dəyərlilərini, muzey əhəmiyyətli olanlarını mərkəzi şəhərlərində mövcud olan fondlara daşımaqdan ibarət olduğu məlumdur. Bu işlərin real olaraq həyata keçirilməsi üçün sovet quruluşunun ilk günlərindən etibarən mərkəzi hakimiyyət hələ imperiya zamanında əsasən Avropanın tanınmış təhsil ocaqlarında yüksək təhsil almış mütəxəssisləri yerlərə "uzun müddətli ezamiyyətə" göndərməklə başladılar. Bəzi mütəxəssislərin bu məzuniyyəti bir ömür boyu davam etdi. Belə mütəxəssislərdən biri də Cənubi Qafqazın "payına "düşən, gənclik illərindən Ermitajın arxeologiya və numizmatika fondunda müəyyən təcrübəsi olan Yevgeni Aleksandroviç Paxomov idi. Yaradıcılıq illərində çap etdirdiyi çoxsaylə məqalələr, əsərlər sırasında günümüzədək bizlər üçün xüsusi dəyəri olan 9 cildlik Qafqazın, Gürcüstanın, Azərbaycanın və digər vilayətlərin sikkə materialları adlı əsərin böyük əhəmiyyəti vardır. Belə ki, müəllif bu əsərin ilk cildində xüsusi olaraq Qafqazda gələcəkdə sərhədlərin dəyişəcəyi barədə olan fikrində hər şeyi nəzərə alaraq, toponimləri olduğu kimi saxlamağın əhəmiyyətini xüsusi olaraq vurğulamışdı. Həqiqətən XX əsrdə, xüsusilə Azərbaycanda baş verən hadisələr zəminində bu toponimlərin dəyişdirmək cəhdini biz canlı olaraq şahidi olduq. Yenidən bərpa işlərində, xüsusilə 44 günlük II Qarabağ müharibəsinin şanlı Zəfərindən sonra tikilən, bərpa edilən ərazilərimizdə bu faktlar bizlər üçün çox əhəmiyyətlidir. Bu cildələrdə yalnız o zamankı Dağlıq Qarabağ ərazisindəki sikkə tapıntıları barədə məlumatlardan başqa, həm də ruslar tərəfindən Cənubi Qafqazda Gürcüstan və süni şəkildə yaradılan Ermənistandakı türkmənşəli toponimlərin qorunmasını izləmək mümkündür. Bu çoxcildlikdəki sikkələrin numizmatik təsviri ilə tanış olduqda əsərdəki faktiki materialların böyük əksəriyyətinin məhz bizim xalqımızın tarixinə, daha dəqiq ifadə etsək iqtisadiyyat və siyasi tarixinə birbaşa aid olduğunun şahidi oluruq. Təxmini statistik təhlilimizə görə bu respublikalarda rəsmi qeydiyyata alınan sikkələr və sikkə dəfinələrinin tərkibində məhz Azərbaycanın orta və yeni tarixinə aid olan sikkələr üstünlük təşikil edərək, ümümi say hesabının təxminən 70-80 faizini təşkil edir. Ayrıca qeyd etmək lazımdır ki, çoxcildliyin 10-cu cildi əlyazma şəklində Rusiyadadır və çap olunmaq üçün uzun illərdir növbəsini gözləyir.

Y.A.Paxomovun Azərbaycanda və ümumilikdə Cənubi Qafqazda numizmatika elminin yaradılmasında, formalaşmasında, təbliğində digər bir tarixi rolu onun rəhbərliyi ilə 1923-cü ildə o zamankı Azərbaycan Universitetində Arxeologiya və Numizmatika kafedrasını yaratması və uzun illər ona rəhbərlik etməsi faktı olmuşdu. Həmin illərdə keçmiş SSRİ-nin heç bir respublikasında bu adda kafedra fəaliyyət göstərmirdi. Günümüzdə dünyanın sayca dördüncü sırasında olan Ermitaj muzeyinin fondlarının bütövlükdə eksponatlarının 70 faizi numizmatik materiallardan ibarətdir. Bu fondda saxlanılan, vaxtaşırı istifadə olunan sikkə materialları içərisində Azərbaycan dövlətçilik tarixinə aid olan sikkələr və dəfinələr də vardır. Onlardan bir neçəsi hələ XIX əsrdə bəzi rus alimləri tərəfində çap olunmuşdu. 2019-cu ildə Ermitajda uzun fasilədən sonra muzeyin tarixində ikinci dəfə açılan numizitika ekspozisiyasında Azərbaycan sikkələri Qafqaz bölməsində Şirvan adı ilə sərgilənir. Paradoks ondan ibarətdir ki, sıralarında Paxomovun təsvir etdiyi sikkələr də olan bəzi nümunələr Gürcüstan və Ermənistan bölmələrində nümayiş etdirilir.Əlbəttə ölkəmizin sikkəşünaslıq elminin əsaslarını yaradan Y.A. Paxomovun rolu hələ də çox böyük olduğunu və xüsusi yerə malik olduğunu unutmuruq, dəyər veririk.

**Pirguliyeva Ganira Ali gizi**
Associate Professor of the Department of "Archaeology and Ethnography" of Baku State University, Doctor of Philosophy in History
Email: p_qanira@hotmail.com

## The Place and Role of Y.A.Pakhomov in the History of Azerbaijani Numismatic Science

The emergence of numismatic science, or numismatics, which occupies a unique place of importance in the scientific history of our country, is associated with the Soviet Empire for objective reasons. One of the underlying problems of Bolshevik Russia's imperialist policy at the beginning of the 20th century, and perhaps the first, was to uncover, collect and evaluate the remains of the material culture of the indigenous peoples of the territories it had forcibly occupied, transporting the most valuable items to museums in its major cities. To implement these projects, from the beginning of the Soviet system, the central authorities sent specialists who had received a high level of education at renowned European institutions during the empire on 'long-term missions' to various locations. Some of these specialists remained in their posts for life. One such specialist was Yevgeni Aleksandrovich Pakhomov, who 'fell into' the South Caucasus and gained experience in the Hermitage's archaeology and numismatics department during his youth. Among the numerous articles and works he published during his career, the nine-volume work Coin Materials of the Caucasus, Georgia, Azerbaijan and Other Regions is of special value to us to this day. In the first volume of this work, the author emphasises the importance of keeping toponyms as they are, taking everything into account, especially in his opinion that the borders in the Caucasus would change in the future. Indeed, in the 20th century, particularly in Azerbaijan, we witnessed attempts to change these toponyms based on current events. These facts are very important to us in our restoration work, particularly in areas that were built or restored after the Second Karabakh War, also known as the 44-Day War. In addition to information about coin finds in the former Nagorno-Karabakh region, these volumes also allow us to trace the preservation of Turkmen toponyms in Georgia and Armenia that were artificially created by the Russians in the South Caucasus. As we familiarise ourselves with the numismatic descriptions of the coins in these volumes, we see that the majority of the material directly relates to the economic and political history of our people. According to our statistical analysis, coins belonging to the middle and modern history of Azerbaijan predominate among the officially registered coins and coin hoards in these republics, constituting approximately 70–80 per cent of the total number. It should also be noted that the tenth volume of the series is in manuscript form in Russia and has been awaiting publication for many years.

Y.A.Pakhomov played another important historical role in the creation, formation and promotion of numismatic science in Azerbaijan and the South Caucasus in general: under his leadership, the Department of Archaeology and Numismatics was established at Azerbaijan University in 1923, and he headed the department for many years. At that time, no department with this name existed in any republic of the former USSR. Today, 70 per cent of the Hermitage Museum's exhibits, the fourth largest in the world, consist of numismatic materials. Among the coin materials stored in this collection, which are used periodically, there are coins and treasures related to the history of Azerbaijani statehood. Several of these were published by Russian scholars in the 19th century. In 2019, after a long break, the Hermitage's numismatic exhibition opened for the second time in its history. In the Caucasus section, Azerbaijani coins are on display under the name of Shirvan. Paradoxically, some of the coins described by Paxomov are displayed in the Georgian and Armenian sections. Of course, we recognise the important role played by Y.A. Paxomov in the development of numismatics in our country, and we value his work.

**Məmmədova Aygün Musa qızı**
Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika
Fondunun baş mütəxəssisi, tarix üzrə fəlsəfə doktoru
Email: mammadovaaygun1979@gmail.com

## Professor Yevgeni Paxomova aid Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunan materiallar

Fəal muzey işçisi olan, AMEA-nın müxbir üzvü, t.e.d., prof. Yevgeni Aleksandroviç Paxomov (1880-1965) XX əsrin ilk rübündən başlayaraq ömrünün sonunadək Azərbaycan Tarixi Muzeyində (hazırda Milli Azərbaycan Tarixi Muzeyi) Numizmatika Fondunun materialının zənginləşdirilməsi, ekspozisiyanın təşkili, təbliğində iştirak etmişdi. 1922-ci ildə o, muzeyin Tarix və Etnoqrafiya şöbəsinin müdiri, sonralar isə Numizmatika Fondunun müdiri təyin edilmişdi.

Hazırda muzeyin fondlarında alimə aid çoxsaylı materiallar saxlanılır. Numizmatika, Köməkçi Tarixi Fənn Materialları və Sənədli materiallar fondlarında qorunan belə materiallar alimin həyatını açıqlayan vasitələrdəndir.

Həyatının 65 ilini sikkə kolleksiyasını artırmağa sərf etmiş alimin şəxsi sikkə kolleksiyası vəfatından sonra 4 muzey (Bakı, Tbilisi, Moskva, Leninqrad) arasında paylanılmışdı. Alimin şəxsi kolleksiyasına aid olan sikkələr muzeyin Numizmatika Fondunda ayrıca şkafda saxlanılır və xüsusi inventar kitabında qeyd edilib.

Numizmatika Fondunda qorunan bir əsrdən artıq yaşı olan, 1 saylı ilk inventar kitabı qədim eksponatlardandır. 1926-cı ilə aid bu kitabın son səhifəsində arxeoloq alim, muzeyin direktoru vəzifəsində çalışmış Davud Şərifovun (1885-1952) imzası vardır. 6081 ədəd sikkə barədə məlumatların qeyd edildiyi bu kitab qara mürəkkəblə yazılmışdır.



**Foto 1. Professor Yevgeni Paxomov Azərbaycan Tarixi Muzeyində arxeoloji tapıntıları təyin edərkən.**

Məhz alimin numizmatik təyinatı, zəhməti və muzeyə təhvil verilən numizmatik materiallar sayəsində 1955-ci ildə fond sikkələrinin ümumi sayı 25 000 ədəddən artıq olmuşdu (Numizmatika Fondundakı 8 saylı inventar kitabı). Professor Y.Paxomovun vəfatından sonra fonda rəhbərlik edən, t.e.d., prof. Əli Məhəmməd oğlu Rəcəblinin (1927-2022) fəaliyyəti dövründə sikkələrin ümumi sayı 100 000-dən artıq oldu. Alim hələ sağlığında bir sıra fəxri fərmanlara layiq görülmüşdü. Hazırda muzeyin Köməkçi Tarixi Fənn Materialları Fondunda alimin 70 illiyi, 50 illik və 55 illik elmi fəaliyyəti, 75 illiyi, 80 illiyi münasibətilə layiq görüldüyü fəxri fərmanlar qorunur.

Muzeyin “Sənədli materiallar” Fondunda isə alimin həyatı, fəaliyyəti ilə əlaqədar 30 ədəd material vardır. Bunların sırasında onun Sankt-Peterburq, Tiflis şəhərlərindəki tələbəlik dövrünə aid sənədləri, yazışmaları, fotovinyetləri, bildirişləri, vizit vərəqəsi, fotoşəkilləri və d. vardır (foto 1).

T.e.d., prof. Y.Paxomov müxtəlif ezamiyyətlər və ya arxeoloji ekspedisiyalar zamanı əldə etdiyi materialları muzeyə təhvil vermişdi. Belə materiallardan 2 ədədi (metal qab, çıraq) Köməkçi Materiallar Fondunda saxlanılır. Muzeyin digər fondlarında da alimlə əlaqədar materiallar vardır. Belə materiallardan bəziləri alimin sağlığında, bəziləri isə onun vəfatından sonra muzeyə təhvil veriliblər.

Hazırda muzeyin Numizmatika Fondunun əməkdaşları (t.ü.f.d.Aygün Məmmədova, fond müdiri Sənurə Dostiyeva, böyük laborantlar – Aytən Mikayılova, Gülnar İsmayılova, Aynurə Quluzadə) alimdən miras qalmış numizmatik materialların qorunması, təbliği, tədqiqi işini müasir dövrün tələblərinə uyğun olaraq davam etdirirlər. Ölkə alimləri, xarici mütəxəssislər fonda sorğu ilə müraciət edərək alimin həyatı, əsərləri, araşdırma obyektləri barədə məlumat almağa çalışırlar.

Respublikamızda fəaliyyət göstərən qurumlardan biri də Numaz MMC-dir. Baş mütəxəssis Rövşən Əhmədov və cəmiyyətin digər mütəxəssislərinin (Şahin Mirniyaz oğlu Əliyev, Lətifə Vaqif qızı Tahirova və b.) əməyi sayəsində numizmatika elmi yerli və xarici araşdırmaçılara, turistlərə təbliğ edilməkdədir.

**Mammadova Aygun Musa gizi**
Chief Specialist of the Numismatics Fund of the National Museum of History of Azerbaijan, PhD in History
Email: mammadovaaygun1979@gmail.com

## Materials relating to Professor Yevgeni Pakhomov preserved in the funds of the National Museum of History of Azerbaijan

Yevgeni Aleksandrovich Pakhomov (1880-1965), an active museum worker, corresponding member of ANAS, Doctor of Historical Sciences and Professor, participated in enriching the Numismatics Fund, organising the exposition and promoting the material at the Museum of History of Azerbaijan (now the National Museum of History of Azerbaijan) from the beginning of the 20th century until the end of his life. In 1922, he was appointed Head of the History and Ethnography Department at the museum and subsequently Head of the Numismatics Fund.

Currently, numerous materials belonging to the scientist are stored in the museum's collections. These materials, which are preserved in the Numismatics, Auxiliary Historical Subject Materials and Documentary Materials collections, provide insight into the scientist's life.

Having spent 65 years increasing his coin collection, the scientist had his personal collection distributed among four museums (in Baku, Tbilisi, Moscow and Leningrad) after his death. Some of the coins from his personal collection are kept in a separate cabinet in the Numismatic Fund and are recorded in a special inventory book.

The first inventory book, No. 1, is more than a century old and is one of the Numismatic Fund's ancient exhibits. On the last page of this book, dated 1926, is the signature of the archaeologist and museum director, Davud Sharifov (1885–1952). This book records information about 6,081 coins and was written in black ink.

Thanks to the scientist's numismatic determination and hard work, as well as the numismatic materials he transferred to the museum, the total number of coins in the fund exceeded 25,000 by 1955 (inventory book No. 8 in the Numismatic Fund). Following Professor Y. Pakhomov's death, while the fund's head Dr Ali Mahammad oglu Rajabli (1927–2022) was in office, the total number of coins exceeded 100,000. The scientist was awarded several honorary orders during his lifetime. The museum's Auxiliary Historical Subject Materials Fund currently preserves the orders awarded to celebrate the scientist's 70th, 50th, 75th, 80th and 55th anniversaries of scientific activity. The museum's "Documentary Materials" Fund contains 30 items relating to the scientist's life and work (photo 1). These include documents, correspondence, photo vignettes, notices, business cards and photographs related to his time as a student in St. Petersburg and Tbilisi.

Dr Y. Pakhomov, Professor of Economics, handed over materials obtained during various business trips or archaeological expeditions to the museum. Two such items (a metal vessel and a lamp) are kept in the Auxiliary Materials Fund.

There are also materials related to the scientist in other museum funds. Some of these materials were handed over to the museum during the scientist's lifetime and some after his death. Currently, employees of the Numismatics Fund continue the scientist's work in line with modern requirements. Domestic and foreign experts are currently applying to the fund for information about the scientist's life, work and research interests. One organisation operating in this field in our republic is Numaz LLC. Thanks to the efforts of chief specialist Rovshan Ahmadov and other Numaz LLC specialists (Shahin Mirniyaz oglu Aliyev, Latifa Vagif gizi Tahirova, etc.), numismatics is being promoted to local and international researchers and tourists alike.

**Photo 1: Professor Yevgeni Pakhomov identifies archaeological finds at the Azerbaijan History Museum.**

**Qasımova Sənubər Abbas-Ağa qızı,**
Milli Azərbaycan Tarixi Muzeyinin
Köməkçi Tarixi Fənn Materialları Fondunun
müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent
Email: sanubar.museum@gmail.com

## Köməkçi Tarixi Fənn Materialları Fondunda qorunan Professor Yevgeni Paxomova aid materiallar

AMEA-nın müxbir üzvü, t.e.d., prof. Yevgeni Aleksandroviç Paxomov (1880-1965) fəaliyyəti dövründə nəinki numizmatik, həm digər tarixə yardımçı fənnlərə (faleristika, filateliya, sfragistika və d.) aid materialların muzeyə təhvil verilməsinə nail olmuşdu.

Professor Yevgeni Paxomov muzeydə Numizmatika Fondunun ilk yaradıcısı və rəhbəri idi. Onun vəfatından sonra isə qeyd edilən fondun rəhbərliyi fəaliyyəti, əməkdar mədəniyyət işçisi, t.e.d., professor Əli Məhəmməd oğlu Rəcəbliyə (1927-2022) həvalə edildi. Professor Y.Paxomovun layiqli davamçısı olan Əli Rəcəblinin numizmatik təyinatı, toplama işindəki fəallığı sayəsində materialların sayı artmış, yeni elmi əsərlər çap edilmişdi.

1998-ci ildən muzeydə Köməkçi Tarixi Fənn Materialları Fondunun (KTFMF) yaradılması qərara alındı. Nəticədə Numizmatika Fondundakı 30 000 ədəddən artıq qeyri-sikkə materialları qeyd edilən fonda təhvil verildi. Son illərdə məqalə müəllifinin tərtib etdiyi elmi əsərlər məhz bu fondun materiallarına istinadən işlənilib.




**Şəkil 1. KTFMF 2319. Professor Yevgeni Paxomovun 75 illiyi münasibətilə zərb edilmiş lövhə.**

Fonddakı 1929-cu ilin inventar kitabına (77 səhifə) professor Y.Paxomovun xətti ilə 1196 ədəd qiymətli kağızlar haqqında məlumatlar daxil edilmişdir. Azərbaycan Xalq Maarif Komissarlığı dövründə yaradılmış bu inventar kitabına alim XX əsrin Azərbaycan bonistikasını əks etdirən bütün materialları qeyd etmişdi. Bunların sırasında Bakı şəhər Bələdiyyəsi (Uprava), Bakı şəhər Təsərrüfat Şurası, Zaqafqaziya Komissarlığı, Azərbaycan Demokratik Respublikasının pul nişanları, əskinasları, istiqrazları, kredit biletləri, qəbzləri, sığorta sənədləri və b. vardır.

Bununla yanaşı "Bonistika" kolleksiyasında Gürcüstan, Ermənistan, Ukrayna, Türküstan, Özbəkistan, Armavir, Sibir, bundan əlavə digər Avropa və Şərq ölkələrinə aid materiallar da mövcuddur.

Fondda alimin şəxsi əşyaları sırasında bir sıra materiallar (metal lövhəcik, möhür, nişan, medal) qorunmaqdadır.

Fondda professor Y.Paxomovun layiq görüldüyü təltiflər (Şərəf nişanı, N 78098 və 1941-1945-ci illərdəki şanlı əməyə görə medal, N 182), şəxsi möhürü (N 282) qorunmaqdadır. Bundan əlavə 1960-cı ildə alimin iştirak etdiyi XXV Beynəlxalq Şərqşünaslar Konqresinin medalı (N 283) və üzərində "E.A.Pakhomov; USSR" sözləri olan nişan fondun maraqlı materiallarındandır.

Professor Yevgeni Paxomovun 75 illiyi münasibətilə tünd metaldan zərb edilmiş düzbucaqlı lövhənin (KTFMF 2319) üst tərəfinə alimin sağa yönəlmiş barelyefi, "75" rəqəmi və zeytun budağının təsviri, kiril əlifbası ilə: "Professor Yevgeni Paxomovun 75 illik numizmatik fəaliyyəti" sözləri, arxa tərəfinə isə "A.Vasilyev və R.Şeyn tərəfindən; Bakı" həkk edilib (şəkil 1).

Görkəmli numizmat alimin həyat və yaradıcılığı barədə məlumat əldə etməyə yardım edən belə materiallar həm də XX əsrin I yarısında Azərbaycanda muzey işi tarixini açıqlayan vasitələrdəndir.

**Gasimova Sanubar Abbas-Aga gizi,**
Head of Fund of Auxiliary Historical Subject Materials of the National Museum of History of Azerbaijan, PhD in History, Associate Professor
Email: sanubar.museum@gmail.com

## Materials related to Professor Yevgeni Pakhomov, stored in the Fund of Auxiliary Historical Subject Materials

Yevgeni Aleksandrovich Pakhomov (1880-1965), a corresponding member of ANAS with a PhD and a professor, achieved the transfer of materials related not only to numismatics, but also to other subjects auxiliary to history, such as phaleristics, philately and sphragistics, to the museum during his activity.

Professor Pakhomov was the Numismatics Fund's first creator and head. Following his death, management of the fund was entrusted to Honoured Worker of Culture, Doctor of Economic Sciences and Professor, Ali Mahammad oglu Rajabli (1927–2022). Thanks to Ali Rajabli's numismatic expertise and efforts, he proved himself a worthy successor to Professor Y. Pakhomov, increasing the number of materials and publishing new scientific works.

In 1998, the decision was made to establish the Fund of Auxiliary Historical Subject Materials at the museum. Consequently, over 30,000 non-coin materials from the Numismatic Fund were transferred to the aforementioned fund. In recent years, the author of this article has developed scientific works with reference to the materials of this fund.

The 1929 inventory book in the fund (77 pages) contains information about 1,196 securities written by Professor Y.Pakhomov. Created during the Azerbaijan People's Commissariat of Education, this inventory book contains all the materials reflecting Azerbaijani bonistics of the 20th century that the scientist recorded. These include coins from the Baku City Municipality (Uprava), the Baku City Economic Council, the Transcaucasian Commissariat and the Azerbaijan Democratic Republic, as well as banknotes, bonds, credit tickets, receipts and insurance documents.

Additionally, the 'Bonistics' collection contains materials from Georgia, Armenia, Ukraine, Turkestan, Uzbekistan, Armavir, Siberia and other European and Eastern countries.

A number of the scientist's personal belongings (metal plaques, seals, badges and medals) are preserved in the fund.

The awards given to Professor Y. Pakhomov, including the Badge of Honour (No. 78098) and the Medal for Glorious Labour in the Great Patriotic War (No. 182), as well as his personal seal (No. 282), are preserved in the collection. Other interesting materials in the fund include the medal from the XXV International Congress of Orientalists, which the scientist participated in in 1960 (N 283), and the badge bearing the words 'E. A. Pakhomov; USSR'.

To celebrate the 75th anniversary of Professor Yevgeni Pakhomov, a rectangular plaque (No. 2319, photo 1) made of dark metal was minted with a bas-relief of Yevgeni Pakhomov facing right, the number '75', an olive branch and the words '75 years of numismatic activity of Professor Yevgeni Pakhomov' in Russian. On the reverse is inscribed 'By A. Vasilyev and R. Shein; Baku'.

These materials help to provide information about the life and work of the eminent numismatist and also explain the history of museum work in Azerbaijan in the first half of the 20th century.

**Photo 1: No 2319. A plaque minted to celebrate the 75th anniversary of Professor Yevgeni Pakhomov.**

**Cəfərov Mayis Vəliməmməd oğlu,**
Lənkəran Dövlət Universitetinin müəllimi,
tarix üzrə fəlsəfə doktoru
Email: mayis1968@mail.ru

## Yevgeni Paxomovun əsərləri Azərbaycanın cənub-şərq regionu tarixinin öyrənilməsində mənbə kimi

Ölkəmizin müxtəlif bölgələri kimi, cənub-şərq regionu da maddi mədəniyyət nümunələri ilə, o cümlədən, numizmatik materiallarla zəngindir. Bu materialların tədqiqinin Azərbaycan tarixində bir çox məsələlərin elmi şəkildə izahında, tariximizin yeni-yeni faktlarla zənginləşməsində müstəsna əhəmiyyəti vardır.

Zəngin təbii sərvətlərə və əlverişli coğrafi iqlim şəraitinə malik olan Azərbaycan Respublikasının cənub-şərq regionunun xarici əlaqələrinin kökləri ən qədim zamanlara gedib çıxır. Təbiidir ki, həmin dövrlərdə regionun xarici dünya ilə əlaqələrinin öyrənilməsi təksaylı və dəfinə halında aşkarlanan numizmatik materialların dünya mədəniyyət abidələri ilə müqayisəli izahı ilə bağlıdır. Bizə gəlib çatan numizmatik materiallardan bu əlaqələrin izlərini tapmaq mümkündür. Bu regionunun numizmatik abidələrinin tədqiqi tarixşünaslıqda Y.A.Paxomov, V.M.Sısoyev, Ə.M.Rəcəblinin, M.Ə.Seyfəddini, Q.Ə.Pirquliyevanın, A.A.Quliyevin, A.M.Məmmədovanın və M.V.Cəfərovun əsərlərində araşdırılmışdır.

1919-cu ildə numizmat alim Y.A.Paxomovun Tiflisdən Azərbaycana gəlişindən sonra ölkə numizmatikasının öyrənilməsində yeni mərhələ başlayır. O, "Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа" adlı IX cildlik əsərlərində, Azərbaycanda arxeoloji qazıntılar, təsərrüfat işləri zamanı aşkarlanmış sikkə dəfinələri və təsadüfi tapıntıları sistemləşdirmişdir.

Y.A.Paxomovun əsərlərində Azərbaycan Respublikasının cənub-şərq regionunda 1920-1966 illərdə təsadüfi və ya dəfinə halında aşkarlanmış 22 dəfinə, 13 təksaylı sikkə tapılma ardıcıllığı ilə qeydiyyata alınmış və dərc edilmişdir. Alimin 1959 –cu ildə nəşr etdirdiyi "Монеты Азербайджана" adlı digər tədqiqat işində Sasani sikkə monoqramları araşdırılarkən V əsrə aid edilən ilk Sasani dəfinəsinin Azərbaycanın cənub-şərq regionunda və Naxçıvan diyarında aşkarlandığı vurğulanmışdır.

Alim əsərindəki cədvəldə I,14 işarəli sikkənin Azərbaycanın Talış ərazində (Azərbaycan Respublikasının cənub-şərq regionu - M.C.) yerləşən GİLAN vilayət zərbxanasına, 1938-ci ildə Astara rayonunun Şahağacı kəndində tapılmış dəfinədə, I Xosrovun (531-579) və II Xosrovun (590-628) adından zərb olunmuş NAXÇ işarəli sikkələrin isə Naxçıvan zərbxanasına aid olduğunu qeyd etmişdir.

Cənub-şərq regionunda tapılmış, eramızdan əvvəl I əsrdən başlayaraq eramızın XVIII əsrinin sonuna qədərki dövrü özündə əks etdirən sikkələrin tədqiqi regionun numizmatikasının öyrənilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir. Aşkarlanan təksaylı tapıntılar və sikkə dəfinələri bölgə ərazisinin Azərbaycanın siyasi-iqtisadi və mədəni mərkəzlərindən biri olmasını sübut edir.

Y.A.Paxomovun əsərlərində ilk dəfə olaraq Azərbaycan Respublikasının cənub-şərq regionunda aşkarlanmış numizmatik tapıntılar elmi-tədqiqat müstəvisinə çıxarılmışdır.

Y.A.Paxomovun əsərlərindəki Azərbaycan Respublikasının cənub-şərq regionunda aşkarlanmış numizmatik tapıntılar tədqiq olunan dövrdə bölgənin siyasi, iqtisadi və mədəni mərkəzlərdən biri olduğunu təsdiq edir. Regionda aşkarlanmış çox saylı numizmatik tapıntılar bölgənin tranzit yollardan kənarda qalmadığını və bir çox xarici ölkələrlə ticarət əlaqələrinin olduğunu sübut edir.

**Jafarov Mayis Velimammed oglu**,
Teacher of Lankaran State University,
PhD in History
Email: mayis1968@mail.ru

## The works of Yevgeni Pakhomov are a valuable source for studying the history of the south-eastern region of Azerbaijan

Like many other regions of Azerbaijan, the southeast is rich in examples of material culture, including numismatic artefacts. Studying these materials is exceptionally important for scientifically explaining many issues in the history of Azerbaijan and enriching our history with new facts.

The roots of the southeastern region's foreign relations, which has rich natural resources and favourable geographical and climatic conditions, go back to ancient times. The study of the region's relations with the outside world at that time is naturally connected with the comparative analysis of numismatic materials discovered in single and hoarded forms alongside world cultural monuments. Traces of these relations can be found in the numismatic materials that have survived to this day. The numismatic monuments of this region have been studied by Y.A. Pakhomov, V.M. Sysoyev, A.M. Rajabli, M.A. Seyfaddini, G.A. Pirguliyeva, A.A. Guliyev, A.M. Mammadova and M.V. Jafarov, among others.

Following the arrival of the Tbilisi-based numismatist Y.A. Pakhomov in Azerbaijan in 1919, a new chapter in the study of the country's numismatics began. In his nine-volume work, Coin Treasures of Azerbaijan and Other Republics, Regions and Districts of the Caucasus, he categorised coin hoards and random finds discovered during archaeological excavations and economic work in Azerbaijan.

Y.A.Pakhomov registered and published 22 hoards and 13 odd-numbered coins discovered randomly or as hoards in the southeastern region of the Republic of Azerbaijan between 1920 and 1966 in the order of discovery. Another of the scientist's works, Coins of Azerbaijan, published in 1959, emphasises that the first Sasanian hoard, dating back to the 5th century, was discovered.

In the catalogue, the coin marked I,14 is attributed to the Gilan province of Azerbaijan (in the south-east of the country), where it was found in a 1938 burial in the village of Shahagach in the Astara district. The coins bearing the inscriptions I Xosrov (531-579) and II Xosrov (590-628) are attributed to the Naxçıvan mint.

The study of coins from the South-East region, dating from the 1st century BC to the 18th century AD, is important for understanding the numismatics of the region. The discovered coins and coin hoards prove that the region was one of the political, economic and cultural centres of Azerbaijan.

Y. A. Paxomov's works are the first to present numismatic findings from the south-eastern region of Azerbaijan on a scientific level.

The numismatic finds in Y. A. Paxomov's works, which were discovered in the south-eastern region of Azerbaijan, prove that the region was a political, economic and cultural centre during the period in question. The numerous numismatic finds in the region prove that it was not located on the fringes of the transit routes and that it had trade links with many foreign countries.

**Əliyeva Həbibə Mirpaşa qızı**
Milli Azərbaycan Tarixi Muzeyi,
tarix üzrə fəlsəfə doktoru, dosent
Email: ahebibe@gmail.com

## Azərbaycanin epiqrafik abidələrinin öyrənilməsində görkəmli alim Y.A.Paxomovun rolu

Yevgeni Aleksandroviç Paxomov (1880–1965) Azərbaycan tarixi, numizmatikası və epiqrafikasının inkişafında müstəsna xidmətləri olan görkəmli alimlərdəndir. Onun tədqiqatları Azərbaycanın orta əsrlərə aid yazılı abidələrinin elmi baxımdan öyrənilməsi işində əsas yaratmışdır. Alimin "Dərbəndin pəhləvi yazıları" (1929), Bərdə türbəsinin kitabəsi və Bakı Qız Qalasının epiqrafik yazısı ilə bağlı tədqiqatları Azərbaycan epiqrafikasının təşəkkül tarixində ilk mərhələni təşkil edir. Alimin bu işləri epiqrafik mənbələrin numizmatik və arxeoloji materiallarla inteqrasiyasına əsaslanan kompleks tədqiqat modelinin yaranmasına xidmət etmişdir.

Azərbaycanın epiqrafik abidələri xalqın tarixi yaddaşının, dini və mədəni kimliyinin mühüm daşıyıcısıdır. Yazılı daşlar, məscid və türbə kitabələri, həmçinin sikkələr üzərindəki yazılar ölkənin ictimai-siyasi və mədəni həyatına işıq salır. XX əsrin əvvəllərində bu abidələrin elmi öyrənilməsinə başlanılmış və həmin dövrdə Y.A.Paxomovun fəaliyyəti bu sahədə dönüş nöqtəsi olmuşdur. O, epiqrafikanı yalnız köməkçi tarixi fənn kimi deyil, tarixi mənbələrin əsas istiqamətlərindən biri kimi qiymətləndirirdi. Azərbaycan tarixinə yeni töhfə verən bu görkəmli alimin fəaliyyət dairəsi yalnız numizmatika ilə məhdudlaşmırdı. O, Azərbaycanın ən mühüm epiqrafik abidələrindən biri olan, Bakının simvolu sayılan Qız Qalasının kitabəsini tədqiq etmiş və bu sahədə ilk elmi mülahizələrini təqdim etmişdi. Onun "Qız qalası və onun əfsanəsi" adlı məqaləsində Qız Qalasının divarındakı ərəbdilli kitabə tədqiqata cəlb edilmiş və nəticədə hicri 532-ci (miladi 1138–1139) ilə aid olduğu müəyyənləşdirilmişdi.

Y.Paxomovun 1929-cu ildə dərc edilən "Дербендские надписи на пехлевийском языке" ("Dərbəndin pəhləvi yazıları") adlı məqaləsində Dərbənd qalasındakı pəhləvi yazıları araşdırılmış və Sasanilər dövrünə (III–VII əsrlər) aid olduğunu müəyyənləşdirilmişdi.

Alimin 1936-cı ildə "Azərbaycan Filialının əsərləri" toplusunda nəşr etdirdiyi (XXV, c.81-97) «Bərdədə qüllələr, məqbərələr və onların yazıları", "Azərbaycan orta əsr kitabələri və abidələri" adlı məqalələrində bir sıra kitabələrin mətnini açıqlamış, formasını izah etmişdir.

Epiqrafik və numizmatik mənbələrin bir-biri ilə müqayisəli şəkildə araşdırılması Y.Paxomovun elmi fəaliyyətinin əsas xüsusiyyəti idi. O, sikkələr üzərindəki yazıların və memarlıq kitabələrinin oxşar titul və ifadələrini müqayisə edərək, dövlət ideologiyasının dil xüsusiyyətlərini izləyirdi. Bu metod sonrakı illərdə Azərbaycan tarixşünaslığında epiqrafik-numizmatik tədqiqatların kompleks istiqamətinin əsasını təşkil etdi.

Yevgeni Aleksandroviç Paxomov Azərbaycan epiqrafikasının banilərindən biridir. Onun tədqiqatları ölkədə epiqrafikanın elmi səviyyədə öyrənilməsinin təməlini qoymuşdur. Alimin tədqiqatları göstərir ki, epiqrafik abidələrin tarixi, memarlıq və numizmatik məlumatlarla qarşılıqlı şəkildə təhlili Azərbaycanın orta əsrlər tarixi haqqında bilgiləri daha dərindən və dəqiq müəyyənləşdirməyə imkan verir.

**Aliyeva Habiba Mirpasha gizi**
National Museum of History of Azerbaijan,
Doctor of Philosophy in History, Associate Professor
Email: ahebibe@gmail.com

## The role of outstanding scientist Y.A. Pakhomov in the study of epigraphic monuments of Azerbaijan

Yevgeni Aleksandrovich Pakhomov (1880–1965) was an eminent scientist who made exceptional contributions to Azerbaijani history, numismatics, and epigraphy. His research laid the foundation for the scientific study of Azerbaijan's medieval written monuments. His research on the 'Pahlavi inscriptions of Derbent' (1929), the Barda tomb inscription and the Maiden Tower epigraphic inscription constitute the first stage in the formation of Azerbaijani epigraphy. These works served to create a complex research model based on integrating epigraphic sources with numismatic and archaeological materials.

Epigraphic monuments in Azerbaijan play an important role in preserving the country's historical memory, religious beliefs and cultural identity. Inscribed stones, mosque and tomb inscriptions, as well as inscriptions on coins, provide insight into the socio-political and cultural life of the country. The scientific study of these monuments began at the beginning of the 20th century, and Y.A. Pakhomov's work at that time was a turning point in this field. He considered epigraphy to be not only an auxiliary historical discipline, but also one of the main sources of history. This outstanding scientist's sphere of activity was not limited to numismatics; he made a new contribution to the history of Azerbaijan. He studied the inscription on the Maiden Tower, one of the most important epigraphic monuments in Azerbaijan and a symbol of Baku, presenting his initial scientific findings in this area. In his article 'The Maiden Tower and its Legend', he studied the Arabic inscription on the wall of the Maiden Tower and determined that it dates back to 532 AH (1138–1139 AD).

In his 1929 article "Pahlavi inscriptions of Derbend", he studied the Pahlavi inscription.

In 1936, the scholar published the articles "Towers, mausoleums and their inscriptions in Barda" and "Azerbaijani medieval inscriptions and monuments" in the "Azərbaycan Filialının əsərləri" collection (XXV, pp. 81–97), in which he provided translations and explanations of a number of inscriptions.

The comparative study of epigraphic and numismatic sources was a key feature of Y.Pakhomov's academic work. He compared the inscriptions on coins and architectural inscriptions with similar titles and expressions to study the linguistic features of state ideology. This method would later form the basis of the complex direction of epigraphic-numismatic research in Azerbaijani historiography.

Yevgeni Aleksandrovich Pakhomov is one of the founders of Azerbaijani epigraphy. His research has laid the foundation for the scientific study of epigraphy in the country. The scholar's research shows that the historical analysis of epigraphic monuments in conjunction with architectural and numismatic information provides a more detailed and accurate understanding of the history of medieval Azerbaijan.

**Rüstəmbəyova Afət Məmməd qızı**
Milli Azərbaycan Tarixi Muzeyinin Xüsusi Fondunun müdiri,
tarix üzrə fəlsəfə doktoru, dosent

## Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyasındakı "Ay sırğalar"

1938-ci ildə Azərbaycanın İsmayıllı rayonunun Qalagah kəndində küp qəbirdən arxeoloq Yevgeni Paxomov və Fazil Osmanov tərəfindən aşkarlanmış, III əsrə aid «Ay sırğa»lar (XF 25, çəkisi 12, 91q) Milli Azərbaycan Tarixi Muzeyinin Xüsusi fondunda saxlanılır. Ay quruluşlu, zəngin və zərif dekorlu qızıl sırğaların üst səthi xırda dənəcik səpintisi ilə örtülüb. Müxtəlif ölçü və formalı yuvacıqlar isə 19 ədəd Süleyman (ləl) daşları ilə bəzədilib. Sırğa sonluqları ilgəkli, asmaları isə üzüm salxımına bənzər gavərsələrdən ibarətdir.

Bu sırğalarla həmdövr olan, eyni quruluşlu «Ay sırğa»lar (N 327) 2014-cü ildə Azərbaycanın İsmayıllı rayonu Kərmədil nekropolundan arxeoloq Bəxtiyar Cəlilov tərəfindən, digəri isə (XF 362) 2017 - ci ildə Şamaxı rayonunun Dəmirçilər kəndində t.e.d., professor Qafar Cəbiyev tərəfindən daş qutu qəbirdən aşkarlanıblar. Oxşar formalı sırğalar III - V əsrlərdə etno-mədəni əlaqələr nəticəsində Avrasiyadan Qara dəniz bölgəsinə və Finlandiya ərazilərinə qədər geniş yayılmışdır.

Zəngin bədii tərtibatlı Ay sırğalarının müxtəlif variasiyalarda mövcudluğu iki yüz il boyunca xalqların böyük köçü dövründə Hun xaqanlığının əhatə etdiyi geniş coğrafi məkanda polixrom zərgərlik üslubunun dəbdə olduğunun göstəricisidir.




Şəkil 1. XF 25. «Ay sırğa» III əsr, çəkisi 12,91 q. 1938-ci ildə Azərbaycanın İsmayıllı rayonunun Qalagah kəndində, küp qəbirdə arxeoloq Yevgeni Paxomov və Fazil Osmanov tərəfindən aşkarlanmışdır (Milli Azərbaycan Tarixi Muzeyində qorunur).

**Rustambeyova Afet Mammad gizi**
Head of the Special Fund of the
National Museum of History of Azerbaijan, PhD in History

## "Moon Earrings" in the Collection of the National Museum of History of Azerbaijan

The 'Moon Earrings' (XF 25, weight 12.91 g), which date back to the 3rd century, were discovered in 1938 by the archaeologists Yevgeni Pakhomov and Fazil Osmanov in a pit grave in the village of Galagah in the Ismayilli region of Azerbaijan. They are currently kept in the Special Fund of the National Museum of History of Azerbaijan. The upper surface of these elegant, richly decorated gold earrings is covered with a scattering of small grains. The sockets, which vary in size and shape, are adorned with 19 Suleiman stones (ruby). The earrings' ends are loops and their pendants consist of grape-like gavers.

Earrings of a similar design to these were discovered in 2014 by archaeologist Bakhtiyar Jalilov in the Kermadil necropolis of the Ismayilli region of Azerbaijan. Another pair (XF 362) was found in 2017 by Professor Gafar Jabiyev, PhD, in a stone box grave in the village of Demirchiler in the Shamakhi region. Similar earrings were widespread from Eurasia to the Black Sea region and Finland as a result of ethno-cultural contact in the 3rd–5th centuries.

The existence of various versions of these artistically designed 'Moon Earrings' indicates that polychrome jewellery was fashionable across the vast geographical area covered by the Hunnic Khaganate during the Great Migration of Peoples for two hundred years.

**Figure 1. No 25. 'Moon Earring', 3rd century, weight 12.91 g. Discovered in 1938 in a pit grave in the village of Galagah in the Ismayilli region of Azerbaijan by archaeologists Yevgeni Pakhomov and Fazil Osmanov (preserved in the National Museum of History of Azerbaijan).**

**Dostiyeva Sənurə Tarix qızı,**
Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunun müdiri

## XVI-XVII əsrlərdə Qərbi Avropa dövlətlərinin sikkələri Y.A. Paxomovun araşdırmalarında

Orta əsrlərdə Azərbaycanda daxili və xarici ticarətin inkişaf xüsusiyyətləri, xarakter və istiqamətlərinin müəyyənləşdirilməsində yazılı mənbələrlə yanaşı arxeoloji, numizmatik və sfragistik materiallar əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən XVI-XVII əsrlərdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrinin araşdırılmasında numizmatik materiallar əvəzolunmaz mötəbər mənbədir.

Azərbaycan Respublikası ərazisində tapılmış XVI-XVII əsrlərdə Qərbi Avropa dövlətlərində zərb olunmuş sikkə dəfinələrinin topoqrafiyasının müəyyənləşdirilməsində görkəmli numizmat, professor Y.A.Paxomovun 1926-1966-cı illərdə çap olunmuş “Azərbaycanın və Qafqazın digər respublikaları, ölkələri və vilayətlərinin sikkə dəfinələri” silsilə topluları, xüsusilə həmin nəşrin VI və IX buraxılışları əhəmiyyətlidir.

Toplunun VI buraxılışında 1949-1950-cı illərdə Balakən, Quba, Bakı bölgələrindən aşkarlanmış 27 ədəd gümüş talerlər haqqında məlumat verilib. Bunların sırasında üzərində tarix göstərilməyən, biri-birindən rəsmlərlə və yazılarla fərqlənən, ümumi tipinə əsasən hersoq Ferdinandın (1564-1595) adı ilə Tirol şəhərində zərb olunan, Karintiya hersoqu Karlın (1564 - 1590) 1580-cı ildə, Moraviya imperatoru Rudolfun (1576 - 1612) 1584-cü ildə, Transilvaniya kralı Batorinin (1581-1597) 1592-ci ildə, Zalsburq yepiskopu İohann Kuon-Belasinin (1560 - 1586), Saksoniya kralı Avqustun (1533 - 1586) 1572-ci ilin gümüş talerləri və Niderland (1602), Ferdinand I Mediçinin (1587-1609)1601-ci ildə zərb edilmiş gümüş talerləri vardır.

Toplunun IX buraxılışında Balakən və Şəmkirdən tapılmış, XVI-XVII əsrlərin Qərbi Avropa dövlətlərinin 14 ədəd gümüş sikkəsi haqqında məlumat verilir. 1957-ci ildə Şəmkir rayonu ərazisində tapılmış 12 ədəd belə gümüş sikkəni Y.A.Paxomov tədqiq etmişdir.

Beləliklə, Şəmkir rayonundan tapılan və professor Y.A.Paxomova təqdim olunan talerlər əsasən 1540-1590-cı illər arasında, başlıca olaraq XVI əsrin 60-80-ci illərində zərb olunub. Bu tapıntılardan erkəni Ferdinandın adından 1540-cı ildə zərb olunmuş Avstriya və həmin ildə Meklenburqda Henri adından kəsilmiş gümüş talerlərdir. Sonuncular isə II Rudolfun adından 1590-cı ildə zərb olunmuş Moraviya gümüş taleri və Zaltsburqda arxiyepiskop Volfranq Teodorun (1587-1612 –ci il) adından zərb olunmuş, tarixi göstərilməyən iki gümüş talerdir.

Y.A.Paxomovun araşdırmalarından məlum olur ki, Qərbi Avropa talerlərinin Azərbaycana intensiv axını XVI əsrin ikinci yarısı və XVII əsrin əvvəllərinə aiddir. Azərbaycana, əsasən, Avstriya, Tirol, Saksoniya, Meklenburq, Lübek, Burqundiya, Moraviya, Macarıstan,

Transilvaniya, Hollandiya talerləri gətirilirdi. Talerlər böyük ölçülü, ağır çəkili gümüş sikkə olub diametrləri, 3,8 - 4 sm, çəkisi 28-30 q təşkil edirdi. Professor Y.A.Paxomov XVI-XVII əsrlərdə gümüş talerlərin Azərbaycana axınını Qərbi Avropa tacirləri tərəfindən Ərəş və Şamaxıda istehsal olunan, eləcə də Gilan və başqa yerlərdən bura gətirilən ipəyin külli miqdarda alınması ilə əlaqələndirir.

**Dostiyeva Sanura Tarikh gizi,**

Head of the Numismatics Fund in National Museum of History of Azerbaijan

## Coins of Western European states in the 16th-17th centuries in the research of Y.A. Pakhomov

In addition to written sources, archaeological, numismatic and sphragistic materials are important for determining the characteristics and development of internal and foreign trade in medieval Azerbaijan. From this perspective, numismatic materials are an indispensable and reliable source for studying trade relations between Azerbaijan and Western European countries during the 16th-17th centuries.

In determining the provenance of coin hoards minted in Western European states in the $16^{th}$ - $17^{th}$ centuries and found in the territory of the Republic of Azerbaijan, the series of collections by the eminent numismatist and professor Y.A.Pakhomov, Coin Hoards of Azerbaijan and Other Republics, Countries and Regions of the Caucasus, published between 1926 and 1966, are particularly important, especially the sixth and ninth issues.

The sixth edition of the collection provides information on 27 silver thalers found in the Balakan, Guba and Baku regions between 1949 and 1950. These include undated thalers that differ from each other in their designs and inscriptions. They were minted in Tyrol in the name of various rulers, including Duke Ferdinand (1564–1595), Duke Karl of Carinthia (1564–1590), Emperor Rudolf of Moravia (1576–1612), King Bathory of Transylvania (1581–1597), Bishop Johann Kuon-Belasi of Salzburg (1560–1586) and King Augustus of Saxony (1533–1586). There are also thalers from the Netherlands (1602) and Ferdinand I de' Medici (1587–1609). 1601.

The 9th edition of the collection provides information on 14 silver coins from Western European states from the 16th and 17th centuries that were found in Balakan and Shamkir. In 1957, Y.A. Pakhomov studied 12 silver bel coins found in the Shamkir region.

The thalers found in the Shamkir region and presented to Professor Pakhomov were mainly minted between 1540 and 1590, primarily in the 1560s and 1580s.

The earliest of these finds are the silver thalers minted in Austria in 1540 in the name of Ferdinand, and the silver thalers minted in Mecklenburg in the same year in the name of Henry. The latest are the Moravian silver thaler minted in 1590 in the name of Rudolf II, and two silver thalers minted in Salzburg in the name of Archbishop Wolf Dietrich (1587–1612), the date of which is not indicated.

Y. A. Pakhomov's research shows that the intensive flow of Western European thalers to Azerbaijan dates back to the second half of the 16th century and the beginning of the 17^(th) century. These coins were mainly imported from Austria, Tyrol, Saxony, Mecklenburg, Lübeck, Burgundy, Moravia, Hungary, Transylvania and the Netherlands. These large, heavy silver coins had a diameter of 3.8–4 cm and weighed 28–30 g.

Professor Pakhomov suggests that the influx of silver thalers to Azerbaijan during the 16th and 17th centuries was driven by the substantial silk purchases made by Western European merchants in Arash and Shamakhi, as well as the import of silk from Gilan and other regions.

**Əliyev Şahin Mirniyaz oğlu,**
İçərişəhər Muzey Mərkəzi “Fond işi, Muzey əşyalarının
uçotu və mühafizəsi” şöbəsinin mütəxəssisi

**Yevgeni Paxomov məktəbinin Azərbaycandakı ardıcılları**

Yevgeni Paxomov Azərbaycan numizmatikasının bir elm kimi təşəkkül tapması və inkişafından danışarkən yada düşən ilk şəxsdir. Onu Azərbaycan numizmatikasının banisi adlandırmaq heç də yanlış deyil.

Onun əməyi sayəsində 1920-ci ildə Azərbaycan SSR Dövlət Muzeyinin (hazırda Milli Azərbaycan Tarixi Muzeyi) Arxeologiya, Tarix və Etnoqrafiya şöbəsinin tərkibində Numizmatika fondu yaradılmış, Azərbaycan ərazisində aşkar olunan sikkə tapıntıları bu fonda yerləşdirilmiş, qeydə alınmış, sayı artırılaraq tədqiq və nəşr olunmuşdur.

Y.Paxomovdan sonra Azərbaycan numizmatikasına töhfə verən elm xadimlərimiz - Əli Rəcəbli, Məhəmməd Seyfəddini, Sənubər Qasımova, Aygün Məmmədova, Mayis Cəfərov və Qənirə Pirquliyevanın əsərləri bu elm sahəsinin yaşadılmasına, yeni nəticələrlə zənginləşməsinə səbəb olmuşdur. Gənc nəsil nümayəndələri - Həsən Abdullayev və Mustafa Şabanov isə müstəqil araşdırmaçı qismində fəaliyyət göstərirlər.

Respublikamızın muzeylərində, fərqli yaş kateqoriyasına aid kolleksiyaçılarda unikal və maraqlı sikkələr vardır.

Tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından numizmatikanın rolu əvəzedilməzdir. Müxtəlif tarixi dövrlərdən bəhs edən qədim mənbələrlə yanaşı o dövrlərdə baş verən iqtisadi və hərbi -siyasi durumun öyrənmənilməsində numizmatik materiallar səmərəli rola malikdir. Dövlətçiliyimizin ən mühüm atributlarından biri olan sikkə zərbi və müxtəlif qədim Azərbaycan şəhərlərində zərb olunan sikkələrin tədqiqi, həmin dövrün pul sisteminin öyrənilməsi və hələ də tarixdə bizə naməlum qalan bəzi Azərbaycan zərbxanalarının aşkara çıxarılması Azərbaycan numizmatikasının qarşısında duran mühüm məsələlərdəndir.

**Aliyev Shahin Mirniyaz oglu,**
Specialist of the Department of "Fund Work, Accounting and Preservation of Museum Items" of the Icherisheher Museum Center (Baku city)

## Followers of the Yevgeni Pakhomov school in Azerbaijan

When discussing the formation and development of Azerbaijani numismatics as a science, Yevgeni Pakhomov is the first person who comes to mind. In fact, it would be accurate to call him the founder of Azerbaijani numismatics.

Thanks to his efforts, the Numismatic Fund was established within the Department of Archaeology, History and Ethnography of the State Museum of the Azerbaijan SSR (now the National Museum of History of Azerbaijan) in 1920. Coin finds discovered in Azerbaijan were placed in this fund, where they were recorded, added to, studied and published.

Following Y.Pakhomov, the contributions of Azerbaijani numismatists such as Ali Rajabli, Mahammad Seyfaddini, Sanubar Gasimova, Aygun Mammadova, Mayis Jafarov and Ganira Pirguliyeva have led to a revival and enrichment of this scientific field. Representatives of the younger generation, Hasan Abdullayev and Mustafa Shabanov, work as independent researchers.

The museums of our republic house unique and interesting coins collected by enthusiasts of all ages.

Numismatics plays an irreplaceable role in studying our history and conveying it to future generations. Alongside ancient sources that recount various historical periods, numismatic materials effectively contribute to the study of the economic and military-political situations that occurred during those periods. Important issues facing Azerbaijani numismatics include the study of coinage as one of the most important attributes of our statehood; the coins minted in various ancient Azerbaijani cities; the monetary system of that period; and the discovery of some Azerbaijani mints that are still unknown to us in history.

**MÜNDƏRICAT**

**Ön söz** ..........................................................................................................3

**Əliyeva Nərgiz**. Yevgeni Paxomovun "Azərbaycan tarixinin qısa kursu "
adlı əsəri haqqında..........................................................................................5

**Pirquliyeva Qənirə**. Azərbaycan sikkəşünaslıq elminin tarixində
Y.A.Paxomovun yeri və rolu..............................................................................7

**Məmmədova Aygün.** Professor Yevgeni Paxomova aid Milli Azərbaycan Tarixi
Muzeyinin fondlarında qorunan materiallar........................................................9

**Qasımova Sənubər.** Köməkçi Tarixi Fənn Materialları Fondunda
qorunan professor Yevgeni Paxomova aid materiallar........................................11

**Cəfərov Mayis.** Yevgeni Paxomovun əsərləri Azərbaycanın cənub-şərq
regionu tarixinin öyrənilməsində mənbə kimi.....................................................13

**Əliyeva Həbibə.** Azərbaycanin epiqrafik abidələrinin öyrənilməsində görkəmli alim
Y.A.Paxomovun rolu........................................................................................15

**Rüstəmbəyova Afət.** Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyasında
"Ay sırğalar" ....................................................................................................17

**Dostiyeva Sənurə.** XVI-XVII əsrlərdə Qərbi Avropa dövlətlərinin
sikkələri Y.A. Paxomovun araşdırmalarında.......................................................18

**Əliyev Şahin.** Yevgeni Paxomov məktəbinin Azərbaycandakı ardıcılları .........................20

Materials of the scientific seminar “Azerbaijani Numismatics and Yevgeni Pakhomov” dedicated to the 60th anniversary of the death of Corresponding Member of ANAS, Doctor of Historical Sciences, Professor Yevgeni Aleksandrovich Pakhomov (May 2, 2025). Baku, National Museum of History of Azerbaijan, 2025

**Compiled by: Philosophy Doctor in History Mammadova Aygun Musa gizi**

Summaries of the reports delivered at the seminar dedicated to the 60th anniversary of the death of Corresponding Member of ANAS, Doctor of Historical Sciences, Professor Yevgeni Aleksandrovich Pakhomov are presented in the collection in Azerbaijani and English.